# Səyyar qəbullar

Yaşadığımız zaman sürətli inkişaf yolundadır. 44 günlük müharibədə qazanılan zəfər tarixi ölkəmizin ictimai-siyasi həyatının tərəqqisinə daha parlaq yaşıl işıq oldu. Düşmən tapdağından təmizlənən viran edilmiş ərazilərdə artıq yenidənqurma işləri aparılır, "Ağıllı kənd" və qəsəbələr salınır. Bu məkanlarda sakinlərin firavan yaşaması üçün hər cür şərait yaradılır.

Həmçinin respublikamızın başqa bölgələrində də xalqın rifah halının daha da yaxşılaşdırılması, yaşayış tərzinin yaşadığımız zamanın tələbinə uyğun formalaşdırılması həmişə diqqət mərkəzində saxlanılır.


Kiçik Əmili kəndi.




Hacıalılı kəndi.



Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, rayon sakinlərinin mədəni-məişət qayğıları, onların qarşılaşdığı problemlər rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə bu məqsədlə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.


Soltannuxa kəndi.


Nohurqışlaq kəndi.

İyul ayında rayonumuzun Nohurqışlaq, Soltannuxa, Hacıalılı və Kiçik Əmili kəndlərində səyyar qəbullar keçirilmişdir. Bu qəbullar zamanı Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq-mühafizə orqanlarının, Qəbələ Rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı rayon icra hakimiyyətinin başçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan uğurlardan, həmin işlərin fonunda bölgəyə göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılır. Səyyar qəbul zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilir. Görüşlərdə çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.

# Şəhidin ailə üzvləri qəbul edilib

2016-cı ilin aprel döyüşləri zamanı şəhidlik zirvəsinə ucalmış Bum qəsəbə sakini, leytenant Şirinov Sahil Həsrət oğlunun ailə üzvləri rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən qəbul edilmiş, problemləri dinlənilmiş və həlli istiqamətində müvafiq tədbirlər görülmüşdür. Şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.



# Daim diqqət mərkəzində

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və hüquq-mühafizə orqanlarının rəhbərləri Vətən müharibəsində şəhid olmuş Bəhruz Abışovun ailəsini evində ziyarət etmiş və problemləri ilə maraqlanmışlar. Görüş zamanı şəhidin ailə üzvləri dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.



### HEÇ KİM UNUDULMUR



***Vətən uğrunda göz qırpmadan canını fəda edənlər əbədiyyətə qovuşanlardır. 44 günlük müharibədə şəhadətə qovuşan 26 yaşlı həkim-şəhidimiz Aqşin Faiq oğlu Ənvərli məhz belə qəhrəman eloğlumuzdur. Tarixlərə köçən ömür daş yaddaşlarda, daş görkəmdə!..***

# Mətbuat işçiləri ilə görüş

Milli Mətbuat Günü münasibətilə Qəbələ Rayon İcra Hakimiyyətində "Qəbələ" qəzeti redaksiyasının əməkdaşları ilə görüş keçirilmişdir. Görüşdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev mətbuat işçilərini Milli Mətbuat Günü münasibətilə təbrik etmiş, Azərbaycan milli mətbuatının zəngin inkişaf yolu keçdiyini, "Əkinçi" qəzeti ilə başlayan maarifçilik, yeniləşmə, çağdaş mədəni təfəkkür xəttinin davam etdirilərək xalqımızın milli özünüdərkində, milli oyanış prosesində müstəsna rol oynadığını qeyd etmiş və Qəbələ Rayon İcra Hakimiyyətinin orqanı olan "Qəbələ" qəzeti redaksiyasının əməkdaşlarına səmərəli fəaliyyətlərinə və rayonun ictimai həyatında fəal iştiraklarına görə rayon icra hakimiyyətinin fəxri fərmanlarını təqdim etmişdir. Mətbuat işçiləri adından çıxış edən Azad Məmmədov bu gün Azərbaycanda mətbuata, xüsusilə jurnalistlərə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən yüksək qayğıdan danışmış və bu diqqətə görə ölkə rəhbərliyinə öz minnətdarlığını bildirmişdir.

